24 (1381) 19-24 iyun 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# YERLİ XAMMAL ƏSASINDA İSTEHSALIN GENİŞLƏNDİRİLMƏSİ İXRAC POTENSİALINI ARTIRIR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib.*



İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Əhməd Gözəl müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat veriblər.

"Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - pop-korn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur. İllik istehsal həcmi 9600 ton olan zavodda dünyanın aparıcı ölkələrinin müasir avadanlıqları quraşdırılıb. İstehsalatda istifadə ediləcək günəbaxan, badam, fındıq kimi məhsullar yerli xammal hesabına təmin olunacaq. Ümumi sahəsi 7 hektardan çox olan müəssisədə 210 nəfər daimi işlə təmin ediləcək.

Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Qeyd edək ki, Azərbaycanda istehsal, o cümlədən emal müəssisələrinin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına da xidmət edir, ixrac potensialını daha da artırır. Bütün bunlar "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir.

Bu yeni zavodun yaradılması ölkəmizdə sahibkarlığın təşviqi, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.

## "Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır"

"Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir".

Bu fikirlər Prezident İlham Əliyevin "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına müraciətində yer alıb.

*"Simpoziumda müzakirə ediləcək mövzulardan biri qaçqınların hüquqları ilə bağlıdır. Bu sahədə diqqət yetirilməli olan məsələ keçən əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycandan Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və etnik təmizləməyə məruz qalmasıdır. Həmin dəhşətli deportasiyalardan sonra Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmamış, bu ərazilərdə xalqımızın qədim tarixi-mədəni, dini-mənəvi irsi, o cümlədən abidələr, məscidlər, qəbiristanlıqlar məhv edilmişdir. Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir"*, - deyə müraciətdə bildirilib.

## Rusiya vətəndaşlarının İrandan təxliyəsinə görə Azərbaycana təşəkkür edilib

Rəsmi Moskva Rusiya vətəndaşlarının İrandan təxliyəsi ilə bağlı Azərbaycan tərəfinə minnətdarlığını bildirib.



Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov açıqlama verib. Peskov deyib ki, rusiyalıların İrandan təxliyəsi Azərbaycanla sərhəddə yerləşən keçid məntəqələri vasitəsilə həyata keçirilir: *"Bakı təxliyə üçün əlverişli şərait yaradıb. Buna görə Moskva Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirir. Rusiyalıların təxliyəsi və koordinasiyası üzrə işlər 24 saat fasiləsiz rejimdə davam etdirilir"*. Kreml nümayəndəsinin sözlərinə əsasən, Rusiyanın Tehrandakı səfirliyi öz müşahidəsi altında olan vətəndaşların sayına dair dəqiq məlumata malikdir və İrandan çıxmaq istəyən hər kəsi diqqətlə izləyir. Xüsusi diqqət onların təhlükəsizliyinin təmin olunmasına yönəldilib.

## Avstriya ilə iqtisadi əməkdaşlığın inkişafı müzakirə edilib



OPEC Beynəlxalq İnkişaf Fondunun Forumu çərçivəsində Avstriyanın iqtisadiyyat, enerji və turizm üzrə federal naziri ilə görüşdə iqtisadi-ticarət, enerji, sənaye, texnologiya və digər sahələrdə əməkdaşlıq müzakirə olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Vyanada OPEC Beynəlxalq İnkişaf Fondunun Forumu çərçivəsində Avstriyanın iqtisadiyyat, enerji və turizm üzrə federal naziri Volfqanq Hatmansdorfer ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin ikitərəfli iqtisadi münasibətlərin inkişafı baxımından vacib olduğu vurğulanıb. Azərbaycanda əlverişli işgüzar mühit, investorlar üçün yaradılmış imkanlar haqqında məlumat verilib. Avstriya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyət göstərdikləri qeyd olunub. Ticarət və investisiya əlaqələrinin inkişafında özəl sektorun mühüm rola malik olduğu bildirilib.

Tərəflər iqtisadi-ticarət, enerji, sənaye, texnologiyalar və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparıblar.

## "Kənd təsərrüfatı sektoru dövlətin prioritet istiqamətlərindən biridir"

*"Azərbaycanda son illər ərzində həyata keçirilən məqsədyönlü islahatlar və iqtisadi inkişaf strategiyasında yerli istehsalın gücləndirilməsinə xüsusi önəm verilir. Bu baxımdan, bugünkü sərgi yerli istehsalın təşviqi, istehsalçılarla istehlakçılar arasında qarşılıqlı əlaqələrin dərinləşdirilməsi və yeni əməkdaşlıq imkanlarının formalaşdırılması baxımından olduqca əhəmiyyətli platformadır".*



Bu sözləri kənd təsərrüfatı naziri Məcnun Məmmədov Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə keçirilən 6-cı "Yerli şirkətlərin tanıtım sərgisi"ndə deyib.

O bildirib ki, belə təşəbbüslər ölkəmizdə yerli brendlərin tanınmasında, iqtisadiyyatın şaxələndirilməsində, məşğulluğun artırılmasında və regionlarda sosial rifahın yüksəldilməsində mühüm rol oynayır.

"Kənd təsərrüfatı sektoru dövlətin prioritet istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bu sahədə fermerlərə göstərilən dəstək tədbirləri, o cümlədən kənd təsərrüfatı kreditləri və subsidiya mexanizmlərinin təkmilləşdirilməsi fermerlərin maliyyə resurslarına çıxış imkanlarını xeyli asanlaşdırılıb. Güzəştli kreditlər vasitəsilə fermerlər müasir texnika və texnologiyalar əldə edərək məhsuldarlığı artırmaqla yanaşı, innovativ yanaşmaların tətbiqinə geniş imkanlar qazanırlar. Subsidiyalar isə kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması, istehsal proseslərinin optimallaşdırılması və aqrar sığorta sisteminin gücləndirilməsi istiqamətində mühüm dəstək mexanizmi kimi çıxış edir. Bütün bu tədbirlər fermerlərin risklərini minimuma endirərək onların fəaliyyətlərinin dayanıqlı və səmərəli şəkildə davam etməsinə şərait yaradır",- deyə nazir qeyd edib.

## Azərbaycan ŞƏT-inin İKT üzrə məsul qurum rəhbərlərinin 4-cü görüşündə təmsil olunub

Azərbaycan Çinin Karamay şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) üzv dövlətlərinin İKT sahəsinə məsul nazirlik və agentlik rəhbərlərinin 4-cü görüşündə təmsil olunub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən nazirliyin Aparat rəhbərinin müavini Bəxtiyar Məmmədov Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində həyata keçirilən yeni təşəbbüs və layihələr barədə iştirakçılara ətraflı məlumat verib.

O, Azərbaycanın ŞƏT-ə üzv dövlətlər ilə gələcək əməkdaşlığa hazır olduğunu bir daha vurğulayıb və təşkilatın regional inkişaf istiqamətindəki fəaliyyətinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Səfər çərçivəsində nazirlik rəsmisi "Huawei" şirkətinin bir sıra qabaqcıl texnoloji obyektlərini – İntellektual Nəqliyyat Sistemləri Mərkəzi və Yaşıl Bulud Məlumat Mərkəzini ziyarət edib.



## İqtisadiyyat naziri OPEC Beynəlxalq İnkişaf Fondunun Forumunda iştirak edib





İqtisadiyyat naziri Mikayıl Cabbarov Vyanada keçirilən OPEC Beynəlxalq İnkişaf Fondunun Forumunda iştirakı çərçivəsində panel sessiyada çıxış edib, bir sıra görüşlər keçirib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, nazir forum çərçivəsində təşkil edilən "Resursların dayanıqlılığının təşviqi" adlı panel sessiyada çıxış edib.

Tədbirdə enerji, su və qida sistemlərinin qarşılıqlı əlaqələrindən düzgün istifadə olunmasının əhəmiyyəti qeyd olunub. Bildirilib ki, dayanıqlı inkişaf öhdəliklərinə əməl olunması, karbonsuzlaşma, iqlim fəaliyyətini sürətləndirən tərəfdaşlıqların gücləndirilməsi, innovativ həllərin tətbiqi kimi faktorlar bu kontekstdə önəm kəsb edir. Bu sahədə Azərbaycanın təşəbbüsləri və həyata keçirdiyi tədbirlər haqqında məlumat verilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktoru Gerd Müllerlə görüşüb. Görüşdə sənaye sektorunun inkişafı, dayanıqlı iqtisadiyyatın təşviqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsində təşkilatla tərəfdaşlığın əhəmiyyəti vurğulanıb. Ölkəmizin iqtisadi prioritetləri barədə məlumat verilib, gündəlikdə olan məsələlər nəzərdən keçirilib.

## Neft-qaz sektoruna 2 milyard manat investisiya qoyulub

Cari ilin yanvar-may aylarında neft-qaz sektoruna 1 milyard 958,8 milyon manatlıq vəsait yönəldilib. Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə ölkənin neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 21,9 faiz azalıb. Qeyd edək ki, 2024-cü ilin müvafiq dövründə sözügedən göstərici 2 milyard 468,4 milyon manat səviyyəsində olub.

## Dövlət büdcəsində 3,5 milyard manatlıq artıqlıq yaranıb

Marja.az Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-may ayında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərinə istinadən xəbər verir ki, Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən, 2025-ci ilin yanvar-may aylarında dövlət büdcəsinə 17 milyard 138 milyon manat vəsait daxil olub. Büdcədən 13 milyard 691,8 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 3 milyard 446,2 milyon manatlıq profisit (büdcə artıqlığı) yaranıb.

## 5 ayda hər nəfərə düşən nominal gəlir 3 333 manat olub

Azərbaycanda 2025-ci ilin ilk beş ayında hər nəfərə düşən nominal gəlir 3 332.9 manat olub ki, bu da illik müqayisədə 6,4% artım deməkdir.

Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

Hesabat müddətində əhalinin nominal gəlirləri 34.1 milyard manata çatıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,9% artım deməkdir. Lakin eyni dövrdə inflyasiya səviyyəsi 6,3% təşkil etdiyindən, gəlirlərin real artımı da çox cüzi olub.

Əhalinin banklardakı əmanətləri isə illik 10% artaraq 14.85 milyard manata yüksəlib. Orta aylıq əməkhaqqı 1 100.6 manat təşkil edib ki, bu da ötən ilə nisbətən 10% çoxdur.

Əhalinin sayı 10 milyon 236.2 min nəfərə çatmaqla illik 0.4% artım edib. Pərakəndə ticarət dövriyyəsi 23.34 milyard manat olub və 3.8% artım qeydə alınıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin sərəncamında qalan gəlirləri 29 milyard 687,3 milyon manat təşkil edib.

# Auditin innovativ yanaşmaları və keyfiyyətin idarə edilməsində yeni trendlər

***Müasir dövrün iqtisadi və texnoloji dinamikası audit sahəsində fundamental dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Qloballaşmanın sürətlənməsi, rəqəmsallaşma meyllərinin intensivləşməsi və informasiya texnologiyalarının biznes proseslərinə dərin inteqrasiyası nəticəsində auditin həm nəzəri əsaslarına, həm də praktiki icra mexanizmlərinə yenidən baxılmağa başlanmışdır. Ənənəvi audit modelləri və prosedurlarının yeni reallıqlara tam cavab verə bilməməsi audit sahəsində transformasiyanı zəruri etmişdir. Belə transformasiya prosesində innovativ yanaşmalar və texnoloji yeniliklər yalnız əlavə vasitə kimi deyil, həm də auditin gələcəyini formalaşdıran strateji amillər kimi çıxış edir.***

Auditor fəaliyyətinin mahiyyəti iqtisadi subyektlərin maliyyə hesabatlarının dürüstlüyünü və şəffaflığını yoxlamaq, bununla da ictimai və investor maraqlarını qorumaqdan ibarətdir. Müasir mərhələdə bu funksiyalar daha kompleks və çoxşaxəli xarakter almışdır. Artıq auditoru yanlız maliyyə sənədlərini yoxlayan və maliyyə hesabatlarının dürüstlüyünü təsdiq edən passiv iştirakçı kimi deyil, həm də riskləri əvvəlcədən müəyyənləşdirən və qabaqlayıcı tədbirlər təklif edən strateji tərəfdaş kimi təsəvvür etmək mümkündür. Bu isə auditorun yalnız mühasibatlıq və vergi bilikləri ilə kifayətlənməyib, analitik düşüncə tərzinə, çevik qərarvermə qabiliyyətinə və müasir texnoloji trendlərlə ayaqlaşmaq bacarığına malik olmasını tələb edir.

İnnovativ inkişaflar auditin metodoloji çərçivələrini köklü şəkildə yenidən formalaşdırır. Süni intellekt texnologiyaları artıq auditorlara sadəcə məlumat toplamaqda deyil, həm də kompleks verilənlərin emalı və təhlilində yardımçı olmaqla, anomaliyaların, potensial uyğunsuzluqların və riskli əməliyyatların daha erkən mərhələdə aşkarlanmasına imkan verir. Maşın öyrənməsi alqoritmləri isə təkrarlanan proseslərin avtomatlaşdırılmasını və daha dəqiq nəticələrin əldə edilməsini təmin edir. Bu yanaşmalar audit nəzəriyyəsində qərarvermə proseslərinin optimallaşdırılması və obyektivliyin artırılması baxımından mühüm çəkiyə malikdir.

***Yeni trendlərdən biri də ESG (Environmental, Social, Governance – Ətraf Mühit, Sosial və İdarəetmə) göstəricilərinin auditi və keyfiyyət idarəçiliyinə inteqrasiyasıdır. Müştərilər və investorlar getdikcə daha çox sosial və ekoloji məsuliyyət daşıyan şirkətlərlə əməkdaşlıq etməyə üstünlük verirlər.*** Bu isə o deməkdir ki, audit şirkətləri yalnız maliyyə deyil, həm də davamlı inkişaf indikatorlarını qiymətləndirməlidirlər. "KPMG Audit Azərbaycan" MMC tərəfindən həyata keçirilən bir araşdırmada göstərilir ki, iri korporasiyaların 80%-dən çoxu artıq ESG göstəricilərini öz daxili audit planlarına daxil edib və bu sahədə hesabatlılığı artırmaq üçün yeni rəqəmsal həllərə müraciət edir. Bu yanaşma həm şirkətin ictimai nüfuzunu möhkəmləndirir, həm də onun uzunmüddətli investisiya cəlbediciliyini artırır. ESG indikatorları, xüsusilə Avropa və Şimali Amerikada tənzimləyici qurumların hesabatlılıq tələb etdiyi əsas göstəricilər sırasına daxil edilib. Bu kontekstdə ESG auditi həm təşkilatın strateji məqsədləri ilə uyğunluğunu, həm də əməli fəaliyyətlərin real nəticələrini ölçmək üçün əsas vasitəyə çevrilir. Süni intellekt, böyük verilənlər (big data) və avtomatlaşdırılmış göstərici platformaları vasitəsilə bu məlumatlar daha şəffaf və çevik formada təhlil olunur. Eyni zamanda, şirkətlər ESG üzrə risklərin və imkanların təhlilini həyata keçirərək, təkcə uyğunluq deyil, həm də rəqabət üstünlüyü əldə etməyə çalışırlar.



**Barat Orucov,**
**Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi**



**Maral Osmanova,**
**Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəis müavini**

***Bütün bu trendlər göstərir ki, innovativ inkişaf və keyfiyyətin idarə edilməsi artıq statik proseslərə deyil, əksinə, dinamik və çevik strategiyalara əsaslanır. Əgər əvvəlki dövrlərdə müəssisələr mühüm qərarları müəyyən dövr ərzində toplanmış məlumatlara əsaslanaraq verməli idilərsə, indi məlumatlar anında toplanır və real vaxtda təhlil edilir. Bu, yalnız analitik yanaşmaların inkişafını deyil, həm də daha çevik və sürətli qərar qəbuletmə proseslərini mümkün edir. Artıq müəssisələr strateji planlaşdırmada gələcəkdə mümkün ola biləcək dəyişiklikləri nəzərə alaraq daha çevik yanaşmalar tətbiq edirlər. İnovasiyaların sürətlə dəyişən xarakteri və bazarların qlobal miqyasda şəbəkələşməsi ilə bu yeni yanaşmaların aktuallığı daha da artır.***

Digər tərəfdən, böyük verilənlərin (big data) təhlili imkanları auditorların daha geniş və real vaxtda aparılan təhlillər vasitəsilə sübut bazasını zənginləşdirməsinə şərait yaradır. Bu, həm də daha dərin və əsaslandırılmış nəticələrin əldə olunmasını təmin edir ki, bu da auditin keyfiyyətini və ictimai etibarını əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda, blockchain texnologiyasının tətbiqi auditin əsas prinsip və dəyərlərindən olan şəffaflıq və dəyişməzlik meyarlarını nəzəri baxımdan daha dayanıqlı hala gətirir. Bu texnologiya vasitəsilə qeydə alınan məlumatların dəyişdirilməsi texniki olaraq mümkün olmadığından, auditorların maliyyə məlumatlarının dürüstlüyünə dair verdikləri rəyin obyektivliyi daha yüksək səviyyəyə çatdırılır.

Keyfiyyətin idarə olunması məsələsi audit nəzəriyyəsinin fundamental tərkib hissələrindən biri kimi çıxış edir. Keyfiyyət yalnız yekun hesabatların dəqiqliyi ilə deyil, həm də auditin bütün mərhələlərində – planlaşdırma, məlumatların toplanması, təhlil və hesabatlandırma proseslərində tətbiq olunan peşəkar və etik meyarlarla birbaşa bağlıdır. Bu baxımdan, auditorun peşəkar səriştəliliyi, beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsi, müstəqilliyini qoruyaraq obyektiv nəticələr təqdim etməsi və effektiv ünsiyyət bacarıqları nəzəri cəhətdən əsas keyfiyyət göstəriciləri kimi dəyərləndirilir.

Auditin keyfiyyətinin qorunması və yüksəldilməsi yalnız sərbəst auditorların məsuliyyəti ilə məhdudlaşmır. Bu, eyni zamanda auditor təşkilatlarının, həmçinin dövlət və beynəlxalq səviyyəli tənzimləyici qurumların da əsas funksiyalarından biri kimi nəzərdə tutulur. Beynəlxalq Audit və Etika Standartları Şuraları tərəfindən müəyyən edilmiş konsepsiyalar və tövsiyələr audit nəzəriyyəsinin institusional və hüquqi əsaslarını formalaşdıraraq keyfiyyətə nəzarət mexanizmlərinin davamlı təkmilləşdirilməsinə zəmin yaradır.

Strateji yanaşma baxımından müasir audit artıq yalnız reaktiv yoxlamalarla kifayətlənmir. Əksinə, onun funksiyası proaktiv qərarların verilməsi üçün əsaslı informasiya bazası rolunu oynayır. Bu isə auditin biznes subyektlərinin ümumi idarəetmə sisteminə inteqrasiyası və strateji planlaşdırma prosesində fəal iştirakı zərurətini ön plana çıxarır. Risklərin öncədən təhlili, daxili nəzarət sistemlərinin qiymətləndirilməsi və idarəetmə üzrə tövsiyələrin verilməsi auditin dəyərini və funksional imkanlarını artırır.

İnnovasiya yönümlü yanaşmalar auditorların peşəkar inkişafının davamlılığını da zəruri edir. Auditor yalnız maliyyə sənədlərini analiz edən mütəxəssis deyil, həm də rəqəmsal sistemləri anlayan, texnoloji innovasiyaları tətbiq edə bilən və kompleks problemləri sistemli şəkildə qiymətləndirə bilən bir müasir mütəxəssis kimi yetişməlidir.

Nəticə etibarilə qeyd edilməlidir ki, auditi müasir iqtisadi və texnoloji çağırışlara uyğun şəkildə inkişaf etdirmək üçün innovasiya və keyfiyyət anlayışları bir-birindən ayrılmaz, qarşılıqlı şəkildə bir-birini dəstəkləyən və tamamlayan əsas konsepsiyalar kimi çıxış edir. Audit nəzəriyyəsində bu iki anlayışın sintezi yalnız texniki və metodoloji səviyyədə deyil, eyni zamanda strateji, etik və institusional baxış bucağından da qiymətləndirilməlidir. Müasir dövrdə audit yalnız maliyyə sənədlərinin yoxlanması prosesi olmaqdan çıxaraq, informasiya və risklərin idarə olunmasında, qərarların qəbul edilməsində və strateji planlaşdırmada mühüm rol oynayan analitik və konsultativ bir fəaliyyət növünə çevrilmişdir.

***İnnovativ texnologiyaların – süni intellekt, böyük verilənlərin təhlili və blockchain kimi vasitələrin audit proseslərinə inteqrasiyası bu sahədə çevikliyin, operativliyin və effektivliyin artmasına səbəb olmuşdur. Eyni zamanda, bu texnologiyaların tətbiqi auditorların peşəkar məsuliyyətini də artırmış, onların texniki biliklərlə yanaşı, etik prinsiplərə sadiqliyini və cəmiyyətə verdiyi dəyəri daha da ön plana çıxarmışdır. Belə bir şəraitdə auditin keyfiyyətinin yüksək səviyyədə saxlanması üçün yalnız nəticələrin düzgünlüyü deyil, bütövlükdə prosesin şəffaf, obyektiv, sistemli və beynəlxalq standartlara uyğun şəkildə təşkili həlledici əhəmiyyət kəsb edir.***

Keyfiyyətin idarə olunması sadəcə yekun hesabatların dəqiqliyini təmin etməklə məhdudlaşmır. Bu proses auditorların etik davranışı, peşəkar səriştəsi, prosedurların düzgün seçilməsi və risklərin düzgün qiymətləndirilməsi kimi çoxsaylı komponentləri əhatə edir. Beləliklə, innovasiya və keyfiyyət yalnız audit prosesinə funksional dəstək verməklə qalmır, eyni zamanda bu sahənin ictimai etibarını, qanunverici və tənzimləyici institutlarla olan əlaqələrini və auditor xidmətlərinin ümumi dəyərini müəyyən edən əsas elementlər kimi çıxış edir.

Eyni zamanda, auditor fəaliyyətinin davamlı və dayanıqlı şəkildə inkişaf etdirilməsi üçün nəzəri yanaşmalarla yanaşı, praktiki tətbiq mexanizmlərinin də təkmilləşdirilməsi vacibdir. Əldə olunan nəzəri biliklərin real iqtisadi şəraitə uyğunlaşdırılması və texnoloji imkanlarla uzlaşdırılması auditor xidmətlərinin keyfiyyətini yüksəltməklə yanaşı, cəmiyyətin audit institutlarına olan etimadını da gücləndirir. Auditorların yalnız texniki biliklərlə deyil, həm də etik məsuliyyət hissi və geniş dünyagörüşü ilə fəaliyyət göstərməsi onların dəyişən iqtisadi və texnoloji mühitə uyğunlaşa bilməsini təmin edir.

Beləliklə, audit institutu müasir dövrün sosial-iqtisadi kontekstində sadəcə nəzarət və təsdiq aləti deyil, həm də strateji idarəetmə və dayanıqlı inkişafın təmin olunmasında mühüm rola malik bir institut kimi formalaşır. Bu institutun möhkəm nəzəri bazaya, yüksək keyfiyyət standartlarına və innovasiya yönümlü fəaliyyət strategiyasına malik olması onun gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas meyarlar sırasındadır.

Bu baxımdan, həm nəzəri, həm də tətbiqi səviyyədə həyata keçirilən islahatlar və tədqiqatlar audit sahəsinin davamlı inkişafını, şəffaflığını və ictimai faydalılığını təmin etməyə xidmət etməlidir. Yalnız bu şəkildə audit fəaliyyəti həm milli iqtisadi sistemin sabitliyinə töhfə verə, həm də qloballaşan dünyada beynəlxalq səviyyədə rəqabətədavamlı və etibarlı nəzarət mexanizmi kimi öz yerini möhkəmləndirə bilər.

# "Azinvest İnşaat" Qapalı Səhmdar Cəmiyyətinin 31.12.2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat

| Bölmə/Maddələrin adı | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Qeyri maddi aktivlər. | 9312.45 | 10822.50 |
| Torpaq,tikili və avadanlıqlar | 4133406.71 | 3589669.37 |
| İnvestisiya mülkiyyəti | | |
| Bioloji aktivlər | | |
| Təbii sərvətlər | | |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| Üzunmüddətli debitor borcları | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| **Cəmi uzunmüddətli aktivlər** | **4142719.16** | **3600491.87** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 27376308.57 | 2148348.79 |
| Qısamüddətli debitor borcları | 953734.65 | 2289142.92 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1901311.56 | 5976762.16 |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| Sair qısamüddətli aktivləri | 9762102.27 | 3971478.69 |
| **Cəmi qısamüddətli aktivlər** | **39993457.05** | **14385732.56** |
| **CƏMİ AKTİVLƏR** | **44136176.21** | **17986224.43** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2000 | 2000 |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 4471736.41 | 2914373.68 |
| **CƏMİ KAPİTAL** | **4473736.41** | **2916373.68** |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Sair üzünmüddətli öhdəliklər | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 0.0 | 0.0 |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 33608332.86 | 10249084.55 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 2082649.29 | 2380596.36 |
| Qısamüddətli kreditor borcları | 2658877.47 | 824603.23 |
| Sair qısamüddətli öhdəliklər | 1312580.18 | 1615566.61 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **39662439.80** | **15069850.75** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **39662439.80** | **15069850.75** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **44136176.21** | **17986224.43** |

**İATC**

Baku AZ1131 Azerbaijan Republic
Surakhani Yeni Guneshli setl AB
house 8 apartm 27
Phone: +(994) 50 625 03 75
e-mail: iauditcllc@gmail.com

*"İATC" Məhdud Məsuliyyətli Cəmiyyəti VÖEN: 1905410441 AR Auditorlar Palatası tərəfindən verilmiş 16 yanvar 2023-cü il tarixli AT/261 №-li İcazə*

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**Rəy** QwbbvDiiFt **Tarix 02 iyun 2025-ci il**

Biz ""AZİNVEST İNŞAAT" QAPALI SƏHMDAR CƏMİYYƏTİ (VÖEN 1702336441) 31 dekabr 2024-cü il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**
Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**
Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**
Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.
BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"İATC" MMC-nin direktor auditoru** **Şükürov Rüfət Kamil oğlu**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti İATC Limited Liability Company Republic of Azerbaijan

**Mənfəət və ya zərər, digər məcmu gəlir haqqında hesabat**

| Göstəricilərin adı | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 45708513.10 | 52429145.09 |
| Sair əməliyyat gəlirləri | 220451.38 | 177083.90 |
| Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı artımlar(azalmalar) | | |
| İstifadə edilmiş material ehtiyatları | (9876530.66) | (21638577.65) |
| İşçi heyəti üzrə xərclər | (4859125.82) | (4856161.09) |
| Amortizasiya xərcləri | (1312992.66) | (1255129.08) |
| Digər əməliyyat xərcləri | (1179162.95) | (3122740.60) |
| Sair əməliyyat xərcləri | (24445595.66) | (17612563.56) |
| Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | |
| Əməliyyat mənfəəti (zərəri) | 4255556.73 | 4121057.01 |
| Fövqaladə mənfəət(zərər) | | |
| Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərində) pay | | |
| Vergiqoymadan əvvəl mənfəət | 4255556.73 | 4121057.01 |
| Mənfəət vergisi | (851111.35) | (824211.40) |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 3404445.38 | 3296845.61 |
| O cümlədən: | | |
| Qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| Əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | |
| Digər məcmu gəlir | | |
| Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | |
| O cümlədən: | | |
| Qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | |
| Əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | |

# Bu il sənaye məhsulu istehsalının həcmi açıqlanıb

Cari ilin yanvar-may aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 26 milyard manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz az sənaye məhsulu istehsal edilib, məhsul istehsalı neft-qaz sektorunda 2,8 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 6,4 faiz artıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, sənaye məhsulunun 62,2 faizi mədənçıxarma, 31 faizi emal, 5,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 79,8 faiz olub. Ümumi istehsalın 88,9 faizi sənaye məhsullarının istehsalı, 11,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 iyun 2025-ci il vəziyyətinə 835 milyon manatlıq hazır məhsul olub. Ehtiyatların 51,3 faizi Bakı, 13,6 faizi Sumqayıt, 3,9 faizi Gəncə, 0,7 faizi Şirvan şəhərlərinin, 1,5 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalıb. Sənaye müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 107,3 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

# Kreditlərin 94 faizi banklar tərəfindən verilib

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə 2025-ci il may ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,1 faiz artaraq, milli valyuta ekvivalentində 29 milyard 898,8 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, ümumi kredit portfelinin 25 milyard 046 milyon manatı və ya 83,8 faizi uzunmüddətli kreditlərin payına düşüb.

Kreditlərin 94 faizi banklar, 6 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 8,7 faiz artaraq 502,6 milyon manat olub və ümumi kredit portfelinin 1,7 faizini təşkil edib.

# Azərbaycanda qızıl istehsalı 64 faiz artıb

Cari ilin yanvar-may aylarında qızıl istehsalı 63,9 faiz artaraq 1297,8 kiloqram təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, iyunun 1-i vəziyyətinə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 41,6 faiz azalaraq 119,4 kiloqram olub.

Hesabat dövrü ərzində gümüş istehsalı 23,8 faiz artaraq 1686,9 kiloqram təşkil edib. İyunun 1-i vəziyyətinə gümüş üzrə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 14,7 faiz azalaraq 583,6 kiloqram qeydə alınıb.

# Dövlət satınalmalarının həcmi 1,5 dəfə artıb

"Ölkəmizdə dövlət satınalmalarının həcmi son illərdə əhəmiyyətli dərəcədə artıb. 2020-ci ildə 6,5 milyard manat olan ümumi satınalma həcmi 2024-cü ildə 9,8 milyard manata yüksəlib ki, bu da 1,5 dəfə artım deməkdir".

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə keçirilən 6-cı "Yerli şirkətlərin tanıtım sərgisi"ndə deyib.

O bildirib ki, bu konseptdə təşkil olunan sərgilər biznes və dövlət qurumları arasında birbaşa əlaqələrin qurulması və genişlənməsi üçün əlverişli zəmin yaradır.

# Hər istehlakçı ticarət şəbəkəsində ərzaq məhsullarına 255 manatdan çox pul xərcləyib

***Cari ilin yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 23 milyard 341,3 milyon manatlıq, o cümlədən 13 milyard 73,4 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 10 milyard 267,9 milyon manatlıq qeyri-ərzaq malları satılıb.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, 2024-cü ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,6 faiz, qeyri-ərzaq malları üzrə 6,5 faiz artıb. Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 456,2 manat və ya 2024-cü ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 34,9 manat çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla ayda 255,5 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 200,7 manatlıq qeyri-ərzaq malları alıb. 2025-ci ilin yanvar-may aylarında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 56 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 13 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,3 faizi avtomobil benzini və dizel yanacağının, 4,4 faizi elektrik malları və mebellərin, 2,6 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,5 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən pərakəndə ticarət şəbəkəsində satılmış malların dəyəri 2024-cü ilin yanvar-may ayları ilə müqayisədə 3,8 faiz artaraq 23 milyard 283,2 milyon manata bərabər olub, onun 44,3 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

2025-ci ilin yanvar-may aylarında pərakəndə ticarət dövriyyəsinin 0,42 faizi informasiya sistemlərindən (internet, ekstranet və s.) istifadə edilməklə malların alqı-satqısı üzrə həyata keçirilən fəaliyyət sayəsində formalaşıb. 2024-cü ilin eyni dövrü ilə müqayisədə elektron pərakəndə ticarət dövriyyəsi real ifadədə 73 faiz artaraq 98,9 milyon manat təşkil edib.

# İqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər istehsalı 3,9 faiz artıb

***"Sahibkarlığın inkişafı iqtisadiyyatın böyüməsi, işgüzar aktivliyin, biznesin çevikliyinin artması deməkdir. 2025-ci ilin ötən dövrü ərzində ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlarımız tərəfindən 50 milyard manatdan çox ümumi daxili məhsul istehsal edilib".***

Bu sözləri iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə keçirilən 6-cı "Yerli şirkətlərin tanıtım sərgisi"ndə deyib.

O vurğulayıb ki, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər istehsalı 3,9 faiz artıb.

"Bu sərgidə əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi və neft-qaz amilindən asılılığın mümkün qədər azaldılmasıdır. Bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 465 min vahiddən çox artıb və 2025-ci il iyun ayının 1-nə 1 milyon 867 mini ötüb. Cari il yanvar-may aylarında dövlət büdcəsinə 7,8 milyard manata yaxın vergi daxil olub ki, bu da ötən illə müqayisədə 4,6 faiz artım deməkdir. Ödənilən vergilərin 72,9 faizi qeyri-neft-qaz sektorunun payına düşür", - deyə o qeyd edib.

# İran-İsrail qarşıdurması və dünya bazarında neftin qiyməti



İsrail ilə İran arasında baş verən silahlı toqquşmanın nəticəsində dünya bazarında neftin qiyməti 13,18 faiz artıb. İyunun 13-nə qədər dünya bazarında "Brent" markalı neftin 1 bareli 62 dollara satılırdısa, iyunun 16-da həmin neftin qiyməti 74 dollara yüksəlib.

AZƏRTAC xəbər verir ki, İsrailin İranın neft anbarları ilə yanaşı, digər neft infrastrukturlarına raket zərbələri endirməsi İran neftinin əsas alıcıları - Hindistan və Çinə neft ixracını dayandırıb ki, bu da onları alternativ yollarla neft almağa vadar edib. İranın Hörmüz boğazını bağlamaq niyyəti haqqında bəyanatından sonra dünya bazarında neftin qiyməti bir az da yüksəlib.

"JPMMorgan" bankının analitikləri hesab edir ki, dünya bazarında neftin qiyməti 100 dollara kimi yüksələ bilər.

"Bloomberg Economics" in analitikləri Tom Orlik və Anna Vonq isə hazırladıqları rəydə bildiriblər ki, neftin qiyməti 100 dollara çatsa ABŞ-da bütün növ benzin markalarının pərakəndə satış qiymətləri 17 faiz artacaq ki, bu da öz növbəsində inflyasiyaya və digər malların da qiymətlərinin artmasına gətirib çıxaracaq.

Rusiyadan neft və qaz almaqdan imtina edən Avropa İttifaqı dövlətlərində də inflyasiya qaçılmaz olacaq. Məsələnin mahiyyəti ondan ibarətdir ki, dünya bazarına çıxarılan neftin 30 faizi ərəb ölkələrindən Fars körfəzi vasitəsi ilə tankerlərlə daşınır. Körfəzdən açıq okeana çıxış isə Hörmüz boğazındandır və bu boğaza İran nəzarət edir. İsrailin İranın körfəz sahilindəki neft və qaz infrastrukturunun bombalaması tankerlərin hərəkətini dayandırıb. Ərəb dövlətlərindən Avropa bazarlarına neft daşıyan tankerlərin dayanması neftin qiymətini 25 dollar həcminə artırıb və Avropa üçün problemlər yaradıb.

Lakin Beynəlxalq Enerji Agentliyinin məlumatına görə İran son aylar ərzində sutkada 3,4 milyon barel neft istehsal edirdi. Bu dünya üzrə neft istehsalının cəmi 3 faizini təşkil edir. İranın dünya bazarına neft ixracı tamamilə dayansa, onda OPEC+ dövlətləri bu itkinin yerini tez bir zamanda doldurar. Yalnız Səudiyyə Ərəbistanı sutkada 3 milyon barel neft istehsal edir və dünya bazarında ehtiyac yaranarsa, istehsal artırıla bilər. Bununla yanaşı, OPEC+ dövlətləri də sutkalıq istehsalı 6,5 milyon barelə yüksəldə bilərlər.

Göründüyü kimi, neftin qiymətinin yüksəlməsinə baxmayaraq hələlik dünya bazarına kifayət qədər neft çıxarılır. Risklər İran ilə İsrail arasındakı bu gərginliyin artması və ya azalmasından asılı olacaq. Hərbi əməliyyatlar körfəzin digər ölkələrini də əhatə etsə (Səudiyyə Ərəbistanı, İraq, Birləşmiş Ərəb Əmirliklər) və İran Hörmüz boğazını bağlamaq qərarına gəlsə, o zaman dünya bazarında neft qıtlığı hiss olunacaq və qiymətlər daha yüksək həddə çatacaq.

İran İslam Şurası Məclisinin (Parlament) milli təhlükəsizlik və xarici siyasət komitəsinin sədri İsmail Kövsəri bəyan edib ki, İran Hörmüz boğazını bağlamağı nəzərdən keçirir.

İranın "Fars news" saytı yazır ki, dünyanın enerji təhlükəsizliyi Hörmüz bağazından asılıdır və boğazı bağlamaqla İran istəyinə nail ola bilər. Sayt qeyd edir ki, hərbi əməliyyatların başlaması ilə neftin dünya bazarındakı qiyməti 13 faiz artıb. Hörmüz boğazının bağlanması zamanı isə qiymətlər 100 faiz qalxa bilər.

İraqın xarici işlər naziri Fuad Hüseyn Almaniyalı həmkarı Yoxan Vadelful ilə telefon danışığı zamanı regiondakı vəziyyəti müzakirə ediblər. İraqlı nazir bildirib ki, Hörmüz boğazı bağlansa dünya bazarına sutkada 5 milyon barel neftin çıxarılmasının qarşısı alınacaq. Beləliklə də neftin qiyməti 200 dollardan artıq olar ki, bu da Avropada inflyasiya və iqtisadi böhrana səbəb olar. Almaniyanın xarici işlər naziri İraqlı həmkarının fikirlərinin doğru olduğunu bildirib və nəzərə çatdırıb ki, rəsmi Berlin məsələni nəzarətdə saxlayır.

Hələlik isə hərbi əməliyyatlar və dünya bazarında neftin qiyməti yüksəlməkdə davam edirlər.

# Şəhid və müharibədə yaralananların ailə üzvləri üçün peşə təlimləri davam etdirilir



"AzerGold" QSC tərəfindən "Şəhid və müharibədə yaralananların ailə üzvlərinin iqtisadi inkişafına dəstək" layihəsi çərçivəsində qənnadçı-şirniyyatçı peşəsi üzrə intensiv təlimlər davam etdirilir.

Gəncə şəhəri, Daşkəsən, Göygöl və Samux rayonlarından olan, sözügedən həssas əhali qrupuna aid 15 nəfər qadının iştirak etdiyi peşə təlimi proqramı şəhid və müharibədə yaralananların ailə üzvlərinin qayğı ilə əhatə olunması, onların sosial fəallığını artırmaqla iqtisadi müstəqilliyinin dəstəklənməsi məqsədi daşıyır.

Qeyd edək ki, layihə çərçivəsində iştirakçılara beynəlxalq dərəcəli qənnadçı ekspertlər tərəfindən nəzəri və praktiki təlimlər keçirilir. İki ay davam edəcək intensiv təlimlərdə bütün növ zəruri mal-material və avadanlıqlarla təmin edilən müdavimlərə müvafiq peşə sahəsi üzrə bilik və bacarıqlar aşılanır.

Təlim proqramları yekunlaşdıqdan sonra iştirakçılar Təhsildə



Keyfiyyət Təminatı Agentliyinin "Qeyri-formal və informal təhsilin tanınması" imtahanında iştirak edərək, müvafiq peşə sertifikatı əldə edəcəklər.

Həmçinin layihənin yekunu olaraq təlim proqramlarına cəlb edilmiş tərəfdaş şirkətlər vasitəsilə müdavimlərin müvafiq sahədə işlə təminatına və ya fərdi sahibkarlıq fəaliyyətlərinin təşkilinə dəstək göstəriləcək.

Xatırladaq ki, həssas əhali qrupları "AzerGold" QSC-nin korpoorativ sosial məsuliyyət fəaliyyətində əsas hədəf kateqoriyalarından biri olaraq müəyyən edilib. Səhmdar Cəmiyyəti tərəfindən ardıcıl və sistemli şəkildə icra edilən sosialyönümlü layihələr həssas əhali qrupları da daxil olmaqla, yerli icmaların hərtərəfli diqqət və qayğı ilə əhatə olunması istiqamətində dövlətin yürütdüyü siyasətə əlavə töhfə vermək məqsədi daşıyır.

# Tibb İşçilərinin Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib







***Mərkəzi Gömrük Hospitalında Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə 17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən, bu istiqamətdə son illərdə reallaşdırılan yeniliklərin əhəmiyyətindən bəhs edilib.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin səhiyyəyə göstərdiyi diqqət və qayğı hazırda da dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən səhiyyə sistemində həyata keçirilən məqsədyönlü islahatlar və qoyulan genişmiqyaslı investisiyalar sayəsində bu sahə müasir standartlara uyğun olaraq daim təkmilləşdirilir, vətəndaşlara göstərilən tibbi xidmətlərin keyfiyyəti daha da yüksəlir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkə vətəndaşlarının sağlamlığının qorunması, tibbi xidmətlərin əlçatanlığının artırılması, əhalinin həssas təbəqələrinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması məqsədilə bir sıra əhəmiyyətli layihələr həyata keçirilir.

Ölkəmizdə əhalinin yüksək səviyyəli tibbi xidmətlə təmin olunması istiqamətində Mərkəzi Gömrük Hospitalının kollektivinin uğurlu fəaliyyət göstərdiyi vurğulanıb.

Tədbirin sonunda Mərkəzi Gömrük Hospitalının fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

## Tibbdə PR

# Tibb müəssisələrində cəmiyyət və pasiyentlərlə effektiv kommunikasiya: Müasir PR strategiyaları və rəqəmsal yanaşmalar

*(əvvəli ötən sayımızda)*

Tibb sahəsində PR – sadəcə tanıtım yox, etimad quruculuğudur

Müasir dövrdə səhiyyə sahəsində fəaliyyət göstərən klinikalar, xəstəxanalar və həkimlər üçün ictimaiyyətlə əlaqələr (PR) yalnız tanıtım vasitəsi deyil – bu, etibarın qurulması və qorunması üçün strateji bir alətə çevrilmişdir. Pasiyentlərin seçim etdiyi tibbi müəssisə yalnız texniki imkanlarına və reklam gücünə görə deyil, onların hiss etdiyi etimad və güvən sayəsində fərqlənir. Bu baxımdan PR fəaliyyəti səhiyyədə fərqli və daha həssas yanaşma tələb edir.

**1. Etibar**

Səhiyyə sahəsində etibar qazanmaq digər sahələrə nisbətən daha çətindir. Çünki burada insan həyatı və sağlamlığı kimi ən dəyərli mövzular ön plandadır. Pasiyentlər həkim və tibb müəssisəsinə yalnız xidmətə görə deyil, empatiya, şəffaflıq və dürüst kommunikasiya səbəbilə üz tutur. Məhz buna görə tibb sahəsində PR məlumatın dürüst və anlaşılır formada ötürülməsi, etibarlı imicin yaradılması və qorunması üçün çalışır.

**2. PR-ın funksiyası**

PR fəaliyyətləri yalnız xidmətlərin tanıtımı və təşviqi ilə məhdudlaşmır. Əksinə, bu fəaliyyətlərə pasiyentlərlə qarşılıqlı münasibətin qurulması, cəmiyyətin maarifləndirilməsi, böhranların düzgün idarə olunması, sosial məsuliyyət təşəbbüslərinin təşkili, və media ilə şəffaf əlaqələrin yaradılması da daxildir

**3. Rəqəmsal dövrdə PR – şəffaflıq və ünsiyyətin gücü**

İnternet və sosial medianın geniş yayılması ilə pasiyentlər tibb müəssisələri ilə birbaşa əlaqəyə girə, suallarını verə, rəy bildirə və təcrübələrini paylaşa bilirlər. Ənənəvi reklamın yerini sosial media və məzmun əsaslı kommunikasiya alıb. Bu da tibbi PR-ı daha şəffaf və insan yönümlü olmağa məcbur edir. Klinikalar yalnız reklam etməklə yox, məlumatlandırıcı, faydalı və interaktiv məzmunlarla cəmiyyətlə davamlı əlaqədə olmalıdır.

**4. Brend olmaq – etibarlı imicə sahib olmaqdır**

Səhiyyə müəssisəsinin "brendə çevrilməsi" yalnız loqo və vizual kimliklə mümkün deyil. Gerçək brendlər verdiyi vədləri yerinə yetirən, pasiyent məmnuniyyətini əsas tutan və sosial fayda yaradan müəssisələrdir. Bu baxımdan PR fəaliyyəti strateji planlama, keyfiyyətli kontent hazırlığı, media ilə müntəzəm əməkdaşlıq və daxili kommunikasiyanın gücləndirilməsi ilə güclü imicin formalaşmasına dəstək verir.

**5. Davamlı və dürüst PR – uzunmüddətli etibarın açarıdır**

Etimad bir gündə qazanılmır – bu, zaman, təcrübə və davamlı düzgün kommunikasiya tələb edir. Səhiyyə sahəsində PR komandalarının və ya PR mütəxəssislərinin əsas məqsədi uzunmüddətli və qarşılıqlı faydalı münasibətlərin qurulmasıdır. Bu isə yalnız etik davranışlara, şəffaf informasiyaya və pasiyentə hörmətə əsaslanan kommunikasiya ilə mümkündür.

**Tibb sahəsində PR** reklamdan daha artıq bir anlayışdır. Bu sahədə PR etibarın qurulması, qorunması və möhkəmləndirilməsi üçün strateji bir vasitədir. Hər bir səhiyyə müəssisəsi bu həssas və güclü aləti düzgün istifadə etməklə, yalnız tanınmaqla kifayətlənməz – etibarlı, nüfuzlu və cəmiyyətə faydalı bir brendə çevrilər.



*Dilarə Zamanova,*
*Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi*

# Fitch: "İsrail-İran qarşıdurması bir neçə həftədən artıq davam etməyəcək"

***"İran və İsrail arasında hərbi qarşıdurma Yaxın Şərqdə geosiyasi və təhlükəsizlik risklərini artırıb, daha da alovlanar və ya yayılarsa, bəzi suverenlərin kredit profillərinə mənfi təsir göstərə bilər".***

"APA-Economics" xəbər verir ki, bu barədə "Fitch Ratings" Beynəxalq Reytinq Agentliyindən bildirilib. Qeyd edilib ki, qarşıdurmadan doğan təsirlərin İsrailin "A"/Mənfi reytinq səviyyəsi çərçivəsində qarşılanması mümkün görünür.

"Bizim ehtimalımız budur ki, döyüşlər İsrail və İran arasında məhdud qalacaq və bir neçə həftədən artıq davam etməyəcək. İsrailin güclü müdafiə tədbirləri var və görünür ki, İranın zərbələri əhəmiyyətli iqtisadi təsir göstərməyib. Hesab edirik ki, İsrailin Qəzza və Livanda apardığı hərbi əməliyyatlar nəticəsində İranın bu ərazilərdəki "proksiləri" vasitəsilə İsrailə cavab vermək imkanları zəifləyib. Hər iki amil göstərir ki, İranın İsrailin son hücumlarına hərbi cavabından doğan zərərin İsrailin reytinqinə təsir edəcək səviyyədə olmayacağı ehtimal olunur"- reytinq agentliyi əlavə edib.



Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500